# İydələr çiçəkləyəndə

*(əvvəli ötən sayımızda)*

*(Hekayə)*

Dilşad təəccüblə soruşdu:

- Sizin nəsil deyəndə, elə biri sənin anan - iki oğul doğub, oturmuyub? Onun qızı var, bəyəm?

- Üçüncüsü qız olacaqdı da. İt oğlu Hitler qoydu ki ola?

Dilşad ərinin cavabına gülümsyərək, sualla cavab verdi:

- Hitlerin nə günahı var? Başa düşmədim, niyə qoymadı? Hitler neyləməliydi ki?

Arvadının atmacasını anlayan Xanlar əlindəki loxmasını ağzına qoyub, dedi:

- Ağzına gələni danışma, az, deyirəm, yəni dədəm müharibədən qayıtsaydı, üçüncüsü qız olacaqdı. İndi başa düşdün, ay savadsız?

- Başa düşdük, ay savadlı çoban. Tez ol, yeməyini ye, qurtar, get anavın dalınca. Humay xalaya qalsa, axşama kimi oturacaq bacılığının yanında.

Xanlar stəkanındakı südü başına çəkib, ayağa qalxdı:

- Nəynən gedim, ay arvad, atı o, minib gedib. Bir də ki, canın haqqı, halım yoxdur, dünəndən yuxusuzam. Bir az dincəlim, gəlməsə, axşamtərəfi dalınca gedərəm.

Xanlar süfrəni yığışdıran arvadına arxadan yaxınlaşıb, əlini onun belinə doladı:

- Deyirəm, nə qədər ki arvad evdə yoxdur, bəlkə ...

Dilşad fırlanıb ərinin qolu arasından çıxdı:

- A kişi, get yat, mənim işim başımdan aşır. Uşaqlar indi oyanacaqlar, onları yedizdirməliyəm. Sənə nə var ey, sənin ağlında ancaq bir şey olur... abırsız, necə də bu kişi utanmır ey.

Xanlar arvadının danışığına məhəl qoymayıb, köynəyini soyunaraq, yataq otağına keçdi. Çarpayıda yatan iki balaca oğlanlarının üzündən öpərək, yerdə salınmış döşəyin üstünə uzandı. Dodaqlarının altında, "utansaydım, iki oğlum olmazdı ki. Bəlkə, hələ üçüncü də oğlan oldu, nə bilmək olar?" - deyə mızıldanaraq, yorğanı üstünə çəkdi. Az sonra onun xorultusu eyvanda da aydın eşidilirdi.

...Saat 10-nun yarısında xəstəxananın həyətinə çatan Humay arvad atın yüyənini ağaca bağladıqdan sonra xəstə yanına gətirdiyi ərzaq dolu torbanı atın belindən açıb, əlinə aldı, tələsmədən iki mərtəbəli rayon xəstəxanasının girişinə doğru addımladı. Dəhlizdə qarşısına çıxan tibb bacısından Narıncı arvadın hansı palatada yatdığını öyrənib, həmin qapıya yaxınlaşdı. İçəri daxil olaraq, xəstələrə salam verib, birbaşa bacılığı yatan çarpayıya yaxınlaşdı. Onunla görüşəndən sonra kətil çəkib, böyründə oturdu. Gətirdiyi yemək torbasını çarpayının yanında olan balaca masanın üzərinə qoydu. Palatada Narınc arvaddan başqa üç xəstə qız da vardı. Narıncdan fərqli olaraq onlar sağlam və gümrah görünürdülər. Qızların qaşlarının qalınlığından onların subay olduqları bilinirdi. Səsləri palatanı başına götürmüşdü. Pəncərənin kənarında oturub, xəstəxananın həyətində otlayan ata tamaşa eləyən qız, deyəsən, digər iki qızdan balacaydı, 18 yaşı ancaq olardı. Qızlardan biri öz çarpayısında oturub, uzun saçlarını o biri qıza hördürürdü. Humay bacılığl Narınc arvadın vəziyyəti ilə maraqlandı.

- Allaha şükür, indi yaxşıyam, bacı. Bəxtim onda gətirib ki, sınığım yoxdur. Amma möhkəm əzilmişəm, bir az ağrılarım var, yanlarım gömgöydür. Hələ ayağa qalxa bilmirəm, sağ olsun bu qızları, nə lazım olsa, kömək eləyirlər. Allah onları xoşbəxt eləsin.

Humay başı ilə qızları göstərib, yavaş səslə Narıncdan soruşdu:

- Ay Narınc, bunlar heç xəstəyə oxşamırlar axı, belə də xəstə olar? Hamısı ortalıqda dingildəyir. Sən hələ pəncərəyə dırmaşana bir bax ey, elə bil dağ keçisidir.

Narınc arvad gülümsündü:

- Hə, düz deyirsən, bacı, bax o, çox zirək qızdır. Dili-dilavərdir, soyuqdəymədən yatırdı, indi sağalıb, sabah onu evə buraxacaqlar. O saçını hördürən kor bağırsağından əməliyyat olunub, saçı hörən isə xəstəliyini demir, biz də heç soruşmuruq. Deyəsən, onun babasi...

Palataya daxil olan tibb bacısını görən Narınc sözünün dalını gətirmədi. Tibb bacısı birbaşa Narınc arvada yaxınlaşdı:

- Hə, Narınc xala, necəsən? Ağrıların azalıb?

Narınc arvad əlini ombasının üstünə aparıb, azca ufuldadı və tibb bacısının sualına zarıyaraq cavab verdi:

- Hə, dünənə baxanda ağrılarım bir az azalıb. Amma hələ tərpənə bilmirəm

- Keçib gedəcək, narahat olma. Ağrıkəsici iynələrin köməyi ilə heç nə hiss eləməyəcəksən. Çön, iynəni vurum, ağrıların bir az da azalsın.

Humay Narıncın çönməyinə kömək elədi. Sonra əlini onun ombasına çəkərək, dedi:

- Maşallah, arvad deyil ey, gəmidir, gəmi.

Tibb bacısı Humay arvadın sözünə gülümsünərək dedi:

- Elə bəxti gətirib ki, kökdür, arıq olsaydı, sınığı mütləq olacaqdı. Bu yaşda da sınıq olarsa, çətin əmələ gəlir.

Pəncərənin qırağında oturub, bayaqdan yavaş səslə mahnı zümzümə edərək həyətə baxan qız çarpayıda oturub saç hörgüsü ilə məşğul olan qızları səslədi:

- Ay qızlar, gəlin görün sizə nə göstərirəm. Tez gəlin, tez gəlin, bir ona baxın.

Qızların hər ikisi tələsik yerlərindən qalxıb, maraqla pəncərəyə yaxınlaşdılar. Pəncərədə oturan qız onlara nə göstərdisə, qızların hər üçü ucadan qəh-qəh çəkib gülməyə başladılar. Saçını hördürən qız "ay da" deyib, içini çəkdi. İynəni vurub otaqdan çıxmaq istəyən tibb bacısı qızların həyətə boylanaraq, gülüşdüklərini görüb, soruşdu:

- Nə hırıldaşırsız, az, keçin yerinizdə uzanın. Mənim xəstələrimə bir bax...

Pəncərənin qabağında oturan qız onu da əli ilə yanına çağırdı:

- Sən canın, sən də bir bura gəl.

Tibb bacısı həvəssiz ona yaxınlaşıb, qızın göstərdiyi istiqamətə baxdı. Həyətdəki ağacın yanında otlayan atı görüb, soruşdu:

- Hə, nə var orda, atdır da...

- Eee, ata baxma ey, onun ... Sən tibb işçisisən, tibbi dildə ona nə deyirlər?

Qızlar onun sualına gülüşdülər. Tibb bacısı əli ilə qızın başına yüngülvari bir qapaz vurub, dedi:

- Ala ey, kül qoyum ağlıva, sənin nəyivə lazımdır? Hələ uşaqsan, vaxtı gələndə biləcəksən də.

Qızlar pıqqıldaşaraq gülməklərində idilər, pəncərənin yanında oturan qız:

- De də, nə olar? Bizə maraqlıdır, - dedi və onlardan aralanmaq istəyən tibb bacısının əlindən tutdu, deyəsən öyrənməsəydi, ondan əl çəkmək fikri yox idi.

- Başıvız batsın, elə sual verirsiz ki, güya heç nə bilmirsiz. Tibb sahəsində ona "penis" deyirlər, - bunu deyən tibb bacısı gülə-gülə palatadan çıxdı.

Qızların nəyəsə baxıb, güldüklərini görən, hərdən də qulağına dəyən, "az, az, gör nə boydadır... görən kişilər... yox... hə, nə yaxşı... yazıq arvadlar..." sözlərini eşidən və qızların gülə-gülə dedikləri qısa sözlərdən heç nə anlamayan Humay arvadı da maraq bürüdü. Üzünü Narınc arvada tutub "az, sən dədəvin goru, dayan görüm, bunlar nəyə baxıb hırıldaşırlar ey" deyib, ayağa qalxdı. Pəncərənin qabağına yaxınlaşıb, qızların boylandığı səmtə baxıb, o da gülümsədi. Qızlar Humay arvadın da qımışdığını görüb, daha da bərkdən gülməyə başladılar. Narınc dözməyib soruşdu:

- A Humay, bu qızlar nə görüblər ey orda? Nəyə hırıldaşırlar bu canı yanmışlar?

Humay Narınca sarı gələrək, sol əlini sağ qolunun dirsəyinə tutub, qolunu yelləyərək:

- Az, heç nə. Şahların atıdır da, bu boyda çıxardıb çölə, yelləyir özüyçün, qızlar da baxıb, gülüşürlər, elə bil heç kənd qızları döyüllər, - deyib, kətilin üstündə oturdu. Qızlar Narınc arvadın nə deyəcəyini gözləyirmişlər kimi hamısı gülüşlərini bir anlıq saxlayıb, diqqətlə ona baxdılar. Narınc əlini ombasına tərəf apardı, ufuldayaraq boynunu azacıq qızlara sarı çevirdi və mühüm bir söz söyləyirmiş kimi, boğazını arıtladı, bic-bic gülümsəyərək dilləndi:

- Eh, a qızlar, can sağ ola, orda nə var ki?..

Humay arvad Narıncın bu sözlərinə əlini yellədi:

- Aha, bu da bizim ağbirçək. Allah ətivi töksün elə.

Qızlar Narıncın söylədiklərinə elə ürəkdən güldülər ki, tibb bacısı onların səsini dəhlizdən eşidib, palataya daxil oldu:

- Az, nə hırıldaşırsınız? Tez olun keçin yerinizdə uzanın, baş həkim "obxod"a çıxıb.

Qızlar pəncərənin ağzından hərəsi öz çarpayısına tərəf döndü. Hörüklü qız yanındakı qıza göz vurub, tibb bacısından soruşdu:

- Soyunub uzanaq?.. Yoxsa?..

- Siz yerinizdə uzanın, lazım gəlsə, özü sizi soyunduracaq. Abırsızlar, - deyib, tibb bacısı palatadan çıxdı.

Qızlar yenə də gülüşdülər. Humay Narıncı öpdü, sonra ayağa qalxıb, üzünü qızlara tutaraq:

- Eh, cavanlıq, cavanlıq! Adam sizinlə qocalmaz. Di salamat qalın, qızlar. Yastığınız yüngül olsun, tez sağalın, - deyib, palatadan çıxdı.

O, atını minib, xəstəxananın həyətindən çıxana kimi qızların şən gülüş səsləri hələ də pəncərədən eşidilirdi. Darvazanın yanından keçəndə ətri ətrafa yayılmış iydə ağacının çiçəklədiyini görüb, gülümsədi: "qızlarda günah yoxdur, onları təbiət güldürür" düşünərək, atın yüyənini boşaltdı. At yorğa addımlarla kəndə sarı götürüldü...



**Arif ƏRŞAD,**
**Yazıçı-publisist,**
**Azərbaycan Yazıçılar və**
**Avrasiya Yazarlar**
**Birliklərinn üzvü,**
**Prezident mükafatçısı**

**Azad Azərbaycan.- 2023- cü il.- 19 oktyabr.- S. 6.- № 34.**